NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## Elmi araşdırmalar jurnalı

# 1-(24)2023



Bakı – "Elm və təhsil" – 2023

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 19 may 2023-cü il tarixli (protokol № 2)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Başirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (24)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2023, 120 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
# *Elmi araşdırmalar jurnalı*

*№1.2023(24)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Köç ədəbiyyatının Azərbaycan fenomeni: Vətəndən Vətənə mühacirətin bədii və elmi irsi
doi.org/10.30546/2702-0034.1.24.2023.7

*BAXŞIYEVA Ülkər.*
Nizaminin "Leyli və Məcnun" məsnəvisi və "hami-ovçu" arxetipindən istifadə məsələləri
doi.org/10.30546/2702-0034.1.24.2023.21

*DƏMİROVA Cəmilə.*
İbn əl-Qatta və onun "Əd-durra əl-xatira" antologiyası
doi.org/10.30546/2702-0034.1.24.2023.28

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*DADAŞOVA İlahə.*
Şahin Fazilin "Divan"lar silsiləsində "Beşinci divan" strukturu, tematikası və ideya istiqamətləri39
doi.org/10.30546/2702-0034.1.24.2023.39

*MƏMMƏDLİ Şərqiyyə.*
XX əsrin əvvəllərində Azərbaycan poeziyasında folklor motivləri: forma və janr kontekstində
doi.org/10.30546/2702-0034.1.24.2023.50

*MƏHƏRRƏMZADƏ Tamilla.*
Məmmədağa Sultanovun şeir yaradıcılığı (XX əsrin 30-cu illərinin dövri mətbuat materialları əsasında)
doi.org/10.30546/2702-0034.1.24.2023.60

*MUSTAFAYEVA Göyərçin.*
Çağdaş uyğur ədəbiyyatının şəhid şairi Lütfulla Mütəllip yaradıcılığında milli mücadilə
doi.org/10.30546/2702-0034.1.24.2023.69

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ABDULXALİKOV Firdavs.*
Миниатюры Камал Ад-Дина Бехзада на «Хамсе» Низами Гянджеви –
бесценные шедевры восточного изобразительного искусства
doi.org/10.30546/2702-0034.1.24.2023.83

*QƏDİROVA Afət.*
Həyatının mənasını xalqa xidmətdə görən dahi
doi.org/10.30546/2702-0034.1.24.2023.94

*BABANLI Tomiris.*
Kitablara bağlı ömür
doi.org/10.30546/2702-0034.1.24.2023.102

https://doi.org/10.30546/2702-0034.1.24.2023.28

**Cəmilə DƏMİROVA**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
jamiladamirova@yahoo.com

# İBN ƏL-QATTA VƏ ONUN "ƏD-DURRA ƏL-XATIRA" ANTOLOGİYASI

**Açar sözlər:** Siciliya ədəbiyyatı, İbn əl-Qatta, əd-Durra əl-Xatıra
**Keywords:** Sicilian literature, Ibn Qatta, ad-Durra Al-Khatira
**Ключевые слова:** литература Сицилии, Ибн Катта, ад-Дурра Аль-Хатыра

**Giriş.** Abbasilər hakimiyyətinin ikinci yüzilliyində yerli hakimlər güclənib müstəqil siyasət yeridirdilər. X əsrdə bu vəziyyət daha aşkar xarakter alır. "Muluk ət-təvaif" adlanan tayfa hökmdarları öz aralarında nüfuz və siyasi güc yarışmasına girişirlər. Onlar arasında bir sıra müharibələr baş verir. Amma ərəb-müsəlman dövlətinin qonşu ərazilərə hücumları da ara-sıra rast gəlinən haldır. Həmədani hökmdarı Seyf əd-Dövlənin Bizans imperatorluğu ilə saysız müharibələr aparması məlumdur. Əndəlüsdə möhkəmlənmiş Əməvilərlə qonşu xristian krallıqları arasında müharibələr alovlanırdı. Şərqdə Qəznəvilər sülaləsinin Hindistana hərbi yürüşü məlumdur. Tayfa hökmdarları, bir növ, ərəb fütuhatını davam etdirirdilər. Bunlar arasında Əğləbilər sülaləsinin İtaliyanın cənubundakı Siciliya adasını fəth etməsi də diqqəti cəlb edir. IX əsrin otuzuncu illərindən onlar nəzərlərini Cənubi İtaliyaya yönəldir, bu yerləri fəth etmək üçün hərbi yürüşlər edirlər və 868-ci ildə Maltanı, 878-ci ildə isə Siciliyanı işğal edirlər [2, s.306] və burada 200 ilə yaxın bir dövr ərzində Ərəb–Siciliya ədəbiyyatı formalaşır ki, bu ədəbiyyatın ən mühüm mənbəyi الدرة الخطيرة في شعراء الجزيرة – "əd-Durra əl-Xatıra fi Şuara əl-Cəzirə" ("Ada şairləri barədə layiqli inci") əsəridir.

**Əbul-Qasim Əli ibn Cəfər ibn əl-Qatta: həyatı və əsərləri haqqında.** "əd-Durra əl-Xatıra" əsərinin müəllifi əslən Siciliyadan olan, Məğribin və Əndəlüsün bir çox şəhərlərində tanınan Əbul-Qasim Əli ibn Cəfər ibn əl-Qattadır (1041-1121). İbn Qatta öz dövrünün məşhur ədib və şairlərindən sayılır. Onun dilçilik, ədəbiyyat, əruz elmi, tarixlə bağlı bir sıra əsərləri vardır. İbn Qatta barədə məlumat onun الدرة الخطيرة – "əd-Durra əl-Xatıra" əsərinin sonundakı qısa oçerkdə, əl-Qiftinin أنباه الرواة – "Ənbəh əl-Ruvat", Yaqut əl-Həməvi ər-Ruminin معجم الأدباء – "Mucam əl-udəbə", İbn Xallikanın وفيات الأعيان – "Vafayət əl-Əyan" əsərlərində toplanıb. Bu mənbələrdə onun əslən Siciliyadan olduğu, sonra vətəni tərk edib Misirə getdiyi və burada vəfat etdiyi göstərilir. Əldə olan bütün mənbələr onun hicrətin 433-cü (miladi 1041) ilində Siciliyada anadan olduğunu bildirsə də, konkret hansı şəhərdən olması məlum deyil. İbn Xallikan yazır:

رحل عن صقلية لما أشرف على تملكها الفرنج ووصل إلى مصر في حدود سنة خمسمئة

*Firənglər Siciliyada hakimiyyəti ələ alarkən o, Siciliyanı tərk edib təxminən 500-cü (h) (miladi 1106) ildə Misirə gəlir* [5, s.236].

Siciliyada xristian krallar adanı geri qaytarmaq uğrunda aramsız müharibələr etmişlər. Artıq XI əsrin 40-cı illərində normanlar bəzi ərazilərə sahib olmuşlar və

onların ağalığı XII əsrin başlanğıcında bütün Siciliyanı əhatə etmişdir. Ən gec fəth edilən ərazilər ərəblərin möhkəmləndiyi Cənubi Siciliya idi. Görünür, İbn Qatta da əslən Cənubi Siciliyadan olmuşdur. Hər bir halda o, Misirə gələrkən artıq 65 yaşında idi. Buradan belə bir fikir hasil etmək olar ki, o, Misirə gəlməzdən öncə məşhur ədib kimi tanınmışdır. İbn əl-Qatta Əndəlüsə gedib bir müddət orada yaşamış, sonra Misirə gəlmişdir. Beləliklə, İbn Qattanın həyatının böyük hissəsi Siciliya və qismən də Əndəlüslə bağlı olmuşdur. Bu səbəbdən o, Siciliyada gedən ədəbi proseslərə yaxından bələd olmuşdur.

İbn əl-Qatta barədə ilkin mənbə onun özünün الدرة الخطيرة – "əd-Durra əl-Xatıra" əsərinin sonundakı 106 saylı oçerk sayıla bilər. Burada onun adı belə verilir:

أبو القاسم علي بن جعفر بن علي التميمي السعدي (يعرف بابن القطاع)

*(İbn əl-Qatta kimi tanınan) Əbu-l-Qasim Əli ibn Cəfər ibn Əli ət-Təmimi əs-Sədi.*

Kitabda "İbn əl-Qatta kimi tanınan" ifadəsini müəllif özü deyil, "Durra" əsərinin tərtibçisi əlavə edib. Müəllifin özü barədə məlumat olduqca azdır:

مولده سنة ثلاث وثلاثين وأربعمئة وقال الشعر صبيا سنة ست وأربعين [4, s.232]

*O, 433-cü ildə anadan olub. Erkən yaşında, 46-cı ildə şeir deməyə başlayıb.*

13 yaşından şeir deyən şair özü barədə bu cür qısa məlumatla kifayətlənib şeirlərindən nümunələr verir. Ola bilsin ki, onun məlumatı daha geniş olub, amma əsərin bizə gəlib çatan nüsxəsi bu cür qısa məlumat və onun şeirlərindən olan 59 beytlik nümunələrlə məhdudlaşır. İbn Xallikan bildirir:

وكانت ولادته في سنة ثلاث وثلاثين وأربعمئة هكذا ذكره في كتابه الدرّة الخطيرة في شعراء الجزيرة عند ذكر ترجمة نفسه، رحمه الله تعالى، في أواخر الكتاب المذكور ورأيته يخطه.

*O, 433-cü ildə anadan olub. Bunu o, "Ada şairləri barədə layiqli inci" əsərinin axırına əlavə etdiyi öz tərcümeyi-halında qeyd edib. Allah ona rəhmət eləsin. Həmin kitabın onun öz xətti ilə yazılmış nüsxəsini görmüşəm* [5, s.324].

İbn Xallikanın əsərində 447 saylı oçerkdə İbn əl-Qattanın şimal ərəblərinin ulu babası Ədnana gedib çıxan nəsil şəcərəsi verilir [5, s.322].

علي بن جعفربن علي بن محمد بن عبد الله بن الحسين الشنترينى السعدى

Burada diqqəti çəkən İbn əl-Qattanın öz nisbəsini Santarem şəhəri, yəni Əndəlüs (müasir Portuqaliya) ilə bağlamasıdır. İbn əl-Qattanın Əndəlüslə əlaqəsi barədə maraqlı məlumata əl-Qiftinin أنباه الرواة – "Ənbəh əl-Ruvat" əsərində rast gəlirik. Əl-Qifti göstərir ki, İbn əl-Qatta Saraqustanın bəzi nüfuzlu şəxsləri ilə məktublaşmışdır [8, s.237].

"Əbul-Həsən Hubbətullah ibn Əli ibn Həsən əl-Katib əl-Farda Misirdə olarkən deyib: "Əbul-Qasım Əli ibn Cəfər ibn Əli əl-Luğavi əs-Saqılli deyirdi: Əndəlüs şəhərlərindən olan Saraqustanın hökmdarının Harun kimi vəziri Yusif ibn Hasday mənə məktub göndərmişdir". Əl-Qiftinin məlumatından məlum olur ki, vəzir Saraqustaya daxil olarkən söylədiyi şeiri İbn əl-Qattaya göndərmiş, İbn əl-Qatta da ona bədahətən cavab yazmışdır [8, s.237].

İbn Xallikan İbn əl-Qattanın Əndəlüs şairlərinə bir antologiya həsr etdiyini bildirir [5, s.323]. Bu fakta əsasən İbn əl-Qattanın həyatının həm də Əndəlüslə bağlı olduğunu iddia edə bilərik.

Şairin soy-kökü barədə ən yaxşı məlumatı onun ulu babası (atasının babası) Əbu Abdulla Muhamməd ibn Abdulla ibn Hudeys ibn əl-Qattanın aşağıdakı şeirindən öyrənirik:

نحن بنو الأغلب سدنا الورى    طراً ببذل النائل الغمر
والضرب بالبيض رؤوس العدى    والطعن في اللبات بالسمر
إن فخر الناس علوناهم    بالبذل والإقدام والصبر
والعزة القمساء والسورة ال    علياء والسؤدد والفخر
والحسب السامي الذي تاجه    في هامة الإكليل والغفر
والبيت من "سعد" ومن "خندفٍ"    أكرم بذاك البيت والنجر! [4, s.202-203]

*Biz Əğləb oğullarıyıq. Biz insanlara ağalıq etmişik.*
*Onlara səxavətlə hədiyyələr vermişik.*
*Düşmənlərin başını qılınclarımızla üzüb ürəklərini qara nizələrimizlə deşmişik.*
*Biz ötkəmliyimiz, igidliyimiz, səbrimizlə ən fəxarətli insanları belə üstələmişik.*
*İzzətimiz uca, divarlarımız hündürdür.*
*Biz hökm və şərəf sahibiyik. Əsil-nəcabətimiz o qədər ucadır ki,*
*başımızdakı tac sanki aya çatır.*
*Biz "Səd" və "Xinzəf"in əhliyik. Biz nəsillərin ən kəramətli kökü olanlarıq.*

Gördüyümüz kimi, şair soy-kökü Əğləbilərə bağlanan bir nəsildəndir. Əğləbilər Siciliyanı fəth edən sülalə olduğundan onların ölkədə xüsusi nüfuzu olub. Şeirdə adı çəkilən "Xinzəf" Leyla bint Hulvan ibn İlhaf ibn Qudaanın ləqəbidir. Leyla ərəblər arasında şərəf sahibi və məşhur qadın olub. Ərəblərin bəzi qəbilələrinin, o cümlədən Əğləbilərin də bir qolunu təşkil etdiyi məşhur Təmim qəbiləsinin Xinzəfin nəslindən olduğu söylənilir [4, s.203].

Şeirdə adı çəkilən digər şəxs Səddir. Səd Təmim qəbiləsinin bir qolunun ulu babasıdır. Əğləbilər də bu qoldandır.

İbn əl-Qattanın bu şeirindən uzaq Siciliyada belə ərəblərin öz soy-köklərinə nə qədər bağlı olduğunu görürük. Burada poetik ənənələrin də nə qədər güclü olduğu görünür. Bədii təyinin təyin etdiyi sözü əvəzləməsi ərəb şeirində geniş yayılıb. Şeirdə qılınc yerinə onun bədii təyini olan البيض (ağ), nizə əvəzinə السمر (qara) sözləri buna misaldır. Əslində nizə çox qara olmasa da, təzad naminə parlaq qılıncla müqayisədə solğun nizələrə bu cür epitet verilib. Şeirdə *baş kəsmək, ürək deşmək* kimi ifadələr həmasə ruhunun Siciliya şeirinin ilk mərhələsində güclü olmasından xəbər verir.

Xronoloji baxımdan İbn əl-Qattaya ən yaxın mənbə Yaqut ər-Ruminin əsəri sayılsa da (729 saylı oçerk), İbn Xallikan onun tərcümeyi-halını öz xətti ilə gördüyünü iddia etdiyindən "Vafayət əl-Əyan" əsəri də böyük əhəmiyyət kəsb edir.

Yaqut ər-Rumi göstərir ki, ibn əl-Qatta həm öz vətəni Siciliyada, həm də Misirdə ərəb dili və ədəbiyyat elmləri sahəsində öndə gedən alimlərdən sayılırdı.

كان أمام وقته ببلده بمصر في العلم العربية وفنون الآدب

O, İbn əl-Qattanın Siciliyada Əbu Bəkr Muhamməd İbn əl-Birr əs-Saqalidən dərs aldığını və onun sayəsində İsmayıl əl-Cövhərinin "Sihah" əsərinə bələd olub bu əsərin yayılmasına səbəb olmasını xüsusi qeyd edir [6, s.166]. "Sihah" lüğətinə bələd

olan İbn əl-Qatta əsərə haşiyələr də yazır. Məlumdur ki, orta əsrlərin ən mükəmməl ərəb leksikoqrafik lüğətlərindən olan الصحاح – "Sihah"a bir çox dilçi alimlər haşiyələr və əlavələr yazmışlar [3, s.1-33].

İbn əl-Qattanın "Sihah" sahəsində məşhurlaşması onu dövrünün məşhur dilçiləri ilə bir cərgəyə qoyur. Əl-Qiftinin أنباه الرواة – "Ənbəh əl-Ruvat" əsərində İbn əl-Qattanın lüğətinin bilicilərindən olması başqa şəkildə təqdim edilir. Əgər Yaqut ər-Rumi onun bu əsəri gəncliyində, hələ Siciliyada olarkən öz müəllimindən öyrəndiyini iddia edirsə, əl-Qifti onun həmin əsəri Misirdə öyrəndiyini bildirir:

إنه لما دخل مصر سئل عن كتاب "الصحاح" في اللغة للجوهري فذكر أنه لم يصل إليهم ثم لما رأى استغال الطلبة به ، ورغبة الناس فيه ركّب فيه طريقا في روايته واخد الناس عنه مقلدين له.

*Misirə daxil olarkən ondan əl-Cövhərinin "Sihah" əsəri leksikoqrafik lüğəti barədə soruşdular. O, bu əsərin onlara (Siciliyaya – C.D.) gəlib çatmadığını bildirdi. Sonra o, bu əsərə olan tələbat və adamların bu lüğətə aludəliyini görüb onu öyrəndi və bu sahədə söz (rəvayət) sahibi oldu. Adamlar ondan öyrənib onun söylədiklərini təkrarlayırdılar* [8, s.236].

Yaqut ər-Rumi dilçilik sahəsində İbn əl-Qattanın bir sıra əsərləri olduğunu bildirir:

كتاب الأسماء في اللغة – "Kitəb əl-Əsmə fi əl-Luğa" – "Dildə adlar (isimlər) barədə kitab". Bu əsərdə o, isimlərin quruluşu barədə məlumat verir.

كتاب الأفعال – "Kitəb əl-Əfal" – "Feillər barədə kitab". Yaqut ər-Rumi göstərir ki, o, bu kitabı İbn əl-Qutiyyənin və İbn ət-Tarifin الأفعال – "əl-Əfal" – ("Feillər") kitabları üzərində işləməklə yazıb.

كتاب العروض والقوافي – "Kitəb əl-Arud va əl-Qavafi" – "Əruz və qafiyə barədə kitab". Qeyd etmək lazımdır ki, orta əsrlərdə bu mövzuda bir çox kitablar yazılmışdır (məsələn, Xətib Təbrizi, Sahib ibn Abbad və b.). Bu kitablar, bir qayda olaraq, Xəlil ibn Əhməd əl-Fərahidinin əruz elminə dair əsərinin təkrarından ibarətdir. Sonrakı müəlliflər Xəlilin əsərinə ancaq qafiyə ilə bağlı hissələr əlavə ediblər.

كتاب ذيل تاريخ صقلية – "Kitəb Zeyl Tərix Saqaliyyə" – "Siciliya tarixinə əlavə".

Yaqut ər-Rumi İbn əl-Qattanın poeziya ilə bağlı iki əsərinin adını çəkir. Bunlardan biri haqqında söhbət açacağımız الدرة الخطيرة في شعراء الجزيرة – "əd-Durra əl-Xatıra fi Şuara əl-Cəzirə" ("Ada şairləri barədə layiqli inci"), digəri bizə məlum olmayan فرائد الشذور وقلائد النحور في الأشعار – "Şeirlər barədə mirvari dənələri və bilik boyunbağları" əsərləridir [6, s.166]. İbn əl-Qatta həm də şair kimi tanınır. İbn Xallikan onun çoxlu şeirlərinin olduğunu bildirir [5, s.324]. Yaqut ər-Rumi isə onun şairliyi barədə yazır:

لابن القطاع أشعار ليست على قدر علمه

*İbn Qattanın şeirləri də var, amma bu, onun alimliyinə çatmaz* [6, s.166].

Beləliklə, Yaqut ər-Rumi İbn əl-Qattanın alimliyini onun şairliyindən üstün tutur. Mənbələrdə onun Həmzə adlı gəncə həsr etdiyi şeiri və bir neçə beytdən ibarət kiçik parçaları əks olunub. Həmzəyə həsr olunmuş şeirlər və digər parçalar الدرة الخطيرة – "əd-Durra əl-Xatıra" əsərinin əlimizdəki nəşr nüsxəsinə daxil edilib.

"Əd-Durra"da İbn əl-Qattaya aid edilən ən böyük şeir 11 beytdən ibarətdir. Qalan şeirlər iki-üç beytlik parçalardır. Çox güman ki, bu kiçik parçalar da vaxtilə qəsidə tərkibində olub, sonra uğurlu beytlər kimi antologiya tərtibçiləri tərəfindən

seçilib. Əsərdə cəmi 59 beyt toplanıb. Bu şeirlərin əksəriyyəti qəzəl və nəsibdir. Bir neçə vəsf və bir zuhdiyyə şeiri də var.

İbn əl-Qatta hicri 515-ci ilin səfər ayında Misirdə vəfat edib. Bu tarix bütün mənbələrdə təkrarlanır.

**"Əd-Durra əl-Xatıra fi Şuara əl-Cəzirə" (Ada şairləri barədə layiqli inci) əsəri.** İbn Qattanın hazırkı əsəri birmənalı olaraq orta əsrlər ərəb–Siciliya ədəbiyyatına dair ən dəyərli mənbə sayılır. Bu əsərin əlyazma nüsxələri uzun müddət elm aləminə məlum olmamış, əsərin yalnız bəzi hissələri orta əsr mənbələrində saxlanmışdır. Yaqut əl-Həməvi qeyd edir ki, İbn əl-Qattanın bu antologiyası 170 şairin 20 min şeirini əhatə edir [6, s.166]. Təəssüf ki, əsərin geniş versiyası zəmanəmizə gəlib çatmayıb. Əsəri 1995-ci ildə nəşr etdirən بشير البكويش- – Bəşir əl-Bəkviş "əd-Durra əl-Xatıra" və onun Siciliyanın ədəbi və intellektual həyatında yeri" önsözündə əsərin uzun müddət elm aləminə məlum olmayan əlyazma nüsxələri barədə məlumat verir [4, s.7]. Bu məlumatdan əsərin geniş nüsxəsinin zəmanəmizədək gəlib çatmadığı anlaşılır. Bizə gəlib çatan nüsxələr əsərin müxtəlif müəlliflər tərəfindən tərtib edilib üzü köçürülmüş ixtisarlarıdır. Bu səbəbdən əlimizdəki nəşr nüsxəsində 170 deyil, cəmi 106 şairin tərcümeyi-halı əks olunub. Axırıncı oçerk İbn əl-Qattanın özü barədədir.

الدرة الخطيرة – "əd-Durra əl-Xatıra" əsərində şairlərin tərcümeyi-halı barədə xəbərlər olduqca azdır. Bütün orta əsr antologiyaları kimi, bu əsərdə də ümumi sözlər, tərifli ifadələr şairlərin həyat və yaradıcılığı ilə bağlı dəqiq məlumatları üstələyir. Əsərdəki oçerklərin böyük əksəriyyəti bu ruhdadır. Bəşir Bəkviş əsərdə əks olunan poeziya nümunələrinin zaman çərçivəsini müəyyənləşdirərək yazır:

"Durra"da bizə gəlib çatan ən qədim bioqrafiya Əbul Həsən Əhməd ibn Nasra (əsərdə 11-ci oçerk) məxsusdur. O, Afrikada hakimiyyətə gələn ilk Fatimi xəlifəsi Ubeydullah əl-Mehdinin zamanında (h.291-322) yaşayıb. Xronoloji baxımdan bundan sonra İbn əl-Qatta Kəlbilər dövrünün şairlərindən bəhs edir. Bunlar hakim Kəlbi sülaləsindən olan مقداد بن الحسن الكلبي (100-cü) və ميمون بن الحسن الكلبي (102-ci) oçerklərdir. Onlar Fatimilərin Siciliyaya vali təyin etdiyi Əli İbn Əbil Huseyn əl-Kəlbinin övladlarıdır (h. 341-365). Əsərdə Kəlbilər dövrünün bir çox şairlərindən bəhs edilir. Onlar arasında böyük şair ابن الخياط الربعي (62-ci oçerk), الحسين بن علي القائد (26-cı oçerk) var. Daha sonra müəllif öz dövrünün şairlərindən bəhs edir. Beləliklə, "əd-Durra" antologiyası Siciliyada yaranan ərəb şeirinin bütün dövrlərini əhatə edir [4, s.7-8].

Antologiyadakı bioqrafik məlumatların böyük əksəriyyəti, yuxarıda qeyd etdiyimiz kimi, şablon sözlər yığınından ibarətdir. Bəzi oçerklərdəki məlumat olduqca qısadır. Çox az qisim oçerkdə müəlliflərin yaşadığı dövrü müəyyənləşdirmək olur. Məsələn, ibn Qatta Əbul Həsən Əhməd ibn Nasr əl-Kətib adlandırdığı şairin Xəlifə Mehdi Billahı (X əsrdə yaşamış Fatimi xəlifəsini) mədh etdiyi şeirdən nümunə verir.

Bioqrafik məlumatlar nə qədər az olsa da, şairlərin sənəti, səyahətləri barədə müəyyən fikir hasil etmək mümkündür. Məsələn, İbn əl-Qərquri Siciliyadan köçüb Əndəlüsə getmiş, buranın hökmdar və vəzirləri ilə yaxınlaşmışdır [4, s.195]. Şairlərin bir çoxunun məqamələri olduğu da bildirilir. Belə bir məlumat məqamə janrının sərhədlərini daha da genişləndirir. Abdullah ibn Muhəmməd ibn Əli ibn əs-Sıbağın məqamə sənətində sənətkarlıq göstərdiyi xüsusi vurğulanır [4, s.206].

İbn Qattanın məlumatlarından şairlik edən təbəqənin olduqca müxtəlif sənət sahibi olduqlarını görürük. Şeir yazanların böyük əksəriyyətinin katib, hətta

bəzilərinin divan (dəftərxana) müdiri olduğunu görürük. Şairlər arasında qazilər, fəqihlər, abid və zahidlər, müfəssir və mühəddislər də çoxluq təşkil edir. Bundan əlavə, əttar, dərzi, münəccim və başqa sənət sahiblərinin, əmir və vəzirlərin də şeir dediyini görürük. Ayrıca olaraq Kəlbi sülaləsindən olan bütün hakimlər və sərkərdələr də şairliyi sınayırlar. Əlimizdə olan və 106 oçerki əhatə edən mənbədə şairlərin böyük əksəriyyəti barədə ya heç bir məlumat verilmir, ya da ümumi ifadələr işlənir. Məlumatlar az olsa da, onlar şairlər ordusunun müxtəlif təbəqələrə aid olmasına, müxtəlif dövrlərdə yaşamasına dəlalət edir. Bu cür müxtəliflik müqabilində antologiyada hifz olunan poeziya nümunələrinin də rəngarəng olduğunu görürük.

Bioqrafik oçerklərdə olduğu kimi, İbn əl-Qatta şeirlərin təqdimində də təfsilata varmır. Bir çox nümunələrin janrı belə bildirilmir. Nadir hallarda bu və ya digər şeirin nə münasibətlə yazıldığı qeyd edilir.

Antologiyada əks olunan poeziya nümunələri janr etibarilə rəngarəngdir. Ən çox rast gəlinən şeir nümunələri qəzəldir. Antologiyadakı məhəbbət şeirlərinin böyük əksəriyyəti müzəkkər qəzəldir. Daha sonra xəmriyyə, vəsf, mədhiyyə, mərsiyə, zuhdiyyə janrları gəlir. Əsərdə həcv nümunəsi olduqca azdır. Antologiyada poeziya nümunələri də rəngarəngdir. Burada ən kiçik şeir parçası cəmi bir beytdən, ən böyüyü isə əl-Bəllanubinin mədhiyyəsi olub 42 beytdən ibarətdir.

İbn əl-Qatta antologiyasında tez-tez rast gəlinən şeirlər arasında xəmriyyələri xüsusi qeyd etməliyik. Əbul Həsən Əhməd ibn Nasr əl-Katib deyir:

وصافية اللون مشمولة          مجلية للأسى طارده
إذا مزجت خلت في كاسها          تحلل ياقوتة جامده
وأحور لو أن عرس العزيز          رأته لخرت له ساجده
كان الهلال له والد          وشمس النهار له والده [4, s.48]

*Saf rəngli şərab soyuqdur. Onu içənləri qurtarır.*
*Əgər onu qarışdırsan, sanki donmuş yaqutun əridiyini zənn edərsən.*
*Qara-qırmızıdır. Toy adamları onu görəndə az qala səcdə qılırlar.*
*Sanki göydəki ay onun atası, günortanın parlaq günəşi isə anasıdır.*

Şeirdə şərabın aya, günəşə bənzədilməsi, rənginin yaqutla müqayisəsi ənənəvi obrazlardır. Amma bu şeirdə təsvir şərabla məhdudlaşır. Əbu Nüvas, Bəşşar ibn əl-Mutəzz şeirində olduğu kimi, biz burada şərab məclisini, saqi və müğənniləri görmürük.

İbn əl-Qatta antologiyasında yer ayrılan janrlardan biri də mərsiyədir. Mərsiyələr arasında İbn əl-Kəmuni kimi tanınan şairin Siciliyaya həsr etdiyi şeir diqqəti cəlb edir. Şair bir zamanlar əmin-amanlıq ölkəsi olan Siciliyanın fitnə məkanı olmasına təəssüflənir.

قد كانت الدار وكنا بها          في ظل عيش ناعم رطب
مد عليها الأمن أستاره          فسار ذكرها مع الركب
لم يشكروا نعمة ما خولوا          فبدلوا الملح من العذب [4, s.118]

*Bir vaxtlar evlər də, ocaqlar da*
*Əmin-amanlıq və səadət içində*
*Xurma ağaclarının kölgəsində idi.*
*Əmin-amanlıq uzun müddət idi ki,*
*Öz pərdəsini şəhərin üzərinə çəkmişdi.*

*Hər yerdə bundan danışılırdı.*
*Amma insanlar onlara nəsib olan bu nemətə görə şükr etmədilər.*
*Xoşbəxtliyi əzaba dəyişdilər.*

İbn əl-Qattanın antologiyada cəmlədiyi bəzi şeirlər həmasə ruhundadır. Adətən bu şeirlərin müəllifləri Əntərə ibn Şəddad kimi öz igidlikləri ilə fəxr etməyib, ayrı-ayrı sərkərdə və komandirlərin, əmirlərin igidliyini təsvir edirlər. Həmasə ruhu və müharibə mövzusu Siciliya ədəbiyyatı üçün səciyyəvi idi. Belə ki, Siciliyanın fəthi daim yerli əhalinin və xristian hakimlərin müqaviməti ilə müşayiət olunub. Bir tərəfdən Bizans imperatorluğu və xristian normanlar, digər tərəfdən burada möhkəmlənən Əğləbilər və onları taxt-tacda əvəz etmiş Kəlbilər adanın daim müharibələr içərisində çabalamasının səbəbkarları idilər. Hər bir döyüşən tərəf özünü haqlı bilir, qarşı tərəfi dinsizlikdə təqsirləndirirdi. Müsəlman əhali arasında bu cür ardı-arası kəsilməyən müharibələri qələmə alan şairlər meydana çıxır. Bu şeirlər vaxtilə Əbu Təmmamın xəlifə Mötəsim Billahın, əl-Mütənəbbinin, Seyf əd-Dövlənin apardıqları müharibələrə həsr olunan şeirlərə bənzəyir. Şair əl-Quraşi deyir:

لما لقوا جيشك المنصور منتظما     ظلت رؤوسهم بالبيض تنتشر
أولغت شبلك في الهيجا دماءهم     حتى تورد منه الناب والظفر
إن الدماء لمكروه مغبتها     لكنها عند آساد الوغى هدر [4, s.220]

*(Düşmənlər) sənin qalib və nizamlı ordunu gördükdə*
*Qorxudan saçları ağardı.*
*Sənin (əsgərlərin) döyüşə atılarkən*
*Onların dişləri və caynaqları qana bulaşmış şirə bənzəyirdi.*
*(Şəriətə görə) qan içmək haramdır,*
*Lakin şirlər döyüşə atılarkən qan sel kimi axar.*

Yuxarıdakı şeirdə bir sıra maraqlı məqamlar var. Bunlardan biri döyüşə atılan şirlərin qan içməsidir. Şirlər, təbii ki, burada bədii obraz, bənzətmədir. Amma qeyd edək ki, hələ islamın yarandığı dövrdə insanların düşmənin daxili orqanlarını dişinə çəkməsi kimi məlumatlar vardır. Məsələn, Uhud döyüşündə Əbu Sufyanın arvadı Hindin qətlə yetirilən Həmzənin ciyərini dişinə çəkdiyi söylənilir [1, s.248].

Bu şeirdə şir obrazının yaranması heç də təsadüfi olmayıb, ərəb ədəbi ənənələrinə söykənir. Kəb ibn Zuheyr Məhəmməd peyğəmbərə həsr etdiyi məşhur بانت سعاد- – "Bənət Suad" ("Suad məni tərk etdi") qəsidəsində peyğəmbərin igidliyini tərənnüm edərkən onu şirə bənzədir.

**Nəticə.** الدرة الخطيرة – "əd-Durra əl-Xatıra" əsərinin müəllifi Əbul-Qasim Əli ibn Cəfər ibn əl-Qatta gözlərimiz önündə müəyyən poetik ənənələrə malik bir nəslin nümayəndəsi kimi canlanır və onun özünün də şeir sahəsində qələmini sınadığı aydın olur. Bununla belə, ərəb ədəbiyyatı tarixində əsas xidməti الدرة الخطيرة – "əd-Durra əl-Xatıra" antologiyasını tərtib edib Siciliya şairlərinin ədəbi irsini toplamasıdır. Bu əsərin əlyazma nüsxələri uzun müddət elm aləminə məlum olmamış, əsərin yalnız bəzi hissələri orta əsr mənbələrində saxlanmışdır. İbn əl-Qattanın əsəri birmənalı olaraq orta əsrlər ərəb–Siciliya ədəbiyyatına dair ən dəyərli mənbə sayılır.

Əlaqə
E-mail: jamiladamirova@yahoo.com

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Большаков, О.Г. История халифата. – Москва: Наука, – 1989. – 312
2. Ирмилева, Т.Ю. История мусульманского мира. От Халифата до Блистательной Порты. – Пермь: Звезда, – 2000. – 350
3. Gasimova, A. “Marginal Discourses of Arabic Poetry, A Case Study of the Baku Manuscript,“Taj al-Lughah wa-Sihah al-Arabiyyah” by Abu Nasr Ismail ibn Hammad al-Farabi al-Jawhari”, Journal of Arabic Literature, # 46/2015, issue 1, pp. 1-33
4. الدرة الخطيرة في شعراء الجزيرة، علي بن جعفر بن علي السعدي، أبو القاسم، المعروف بابن القطاع الصقلي، دار الغرب الاسلامي، 1995، 305 ص (addorra-alkhatira : Free Download, Borrow, and Streaming : Internet Archive)
5. ابن خلكان، وفيات اَلعيان وانباء ابناء الزمان، تحقيق احسان عباس، المجلد الثاني، بيروت، دار صادر، 3753، 775 ص
6. ياقوت الحموي الرومي، معجم الأدباء أو ارشاد الأديب الى معرفة الأديب، دار الكتب العلمية، 1991، الجلد الأول، 642 ص
7. ياقوت الحموي الرومي، معجم الأدباء أو ارشاد الأديب الى معرفة الأديب، دار الكتب العلمية، 1991، الجلد الرابع، 635 ص
8. علي بن يوسف بن إبراهيم الشيباني القفطي، أبو الحسن، جمال الدين، إنباه الرواة على أنباه النحاة، تحقيق محمد أبو الفضل إبراهيم، الجزء الثاني، دار الفكر العربي، القاهرة، 1986، 416 ص


**Məqaləyə istinad:** Cəmilə Dəmirova. İbn əl-Qatta və onun “Əd-Durra əl-Xatıra” antologiyası Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 1 (24), 2023. səh.28-35.
Doİ: 10.30546/2702-0034.1.24.2023.28

**Jamila DAMIROVA**

## IBN AL-QATTA AND HIS ANTHOLOGY “AL-DURRA AL-KHATIRA”

### *S u m m a r y*

Islam's advent is an important factor in the unification of all Arab tribes around a single religious ideology and their formation as a nation. An Islamic state-caliphate is established in the Arabian Peninsula, governed by religious principles. Another important event was the beginning of the Futuhat. In 878, the island of Sicily was occupied by the Aghlabis. Who were the Aghlabis that conquered Sicily? Their ancestor was one of the Arab nobles entrenched in Khorasan who helped the Abbasids in the rebellion against the Umayyads and brought them to power. Thus, the Arab–Sicilian literature was formed in Sicily during a period of about 200 years.The most famous representative of this literature is Abul-Qasim Ali ibn Jafar ibn al-Qatta. Although the sources do not provide extensive and detailed information about the scope of the writer, it is known that he was born in Sicily, then moved to Egypt and died there. Historical sources mention a number of Ibn al-Qatta's works, the most famous of which is “al-Durra al-Khatira fi Shuara al-Jazira” (The Precious Pearl on the Poets of the Island). This anthology includes 20,000 poems by 170 poets. However, in this copy of the publication, not 170, but only 106 poets' biographies are reflected. “Al-Durrah's” anthology covers all periods of Arabic poetry originating in Sicily. The examples of poetry reflected in the anthology are diverse in terms of genre. The most common examples of poetry are ghazals.Then come the genres of khamriya, wasf, madhiyyah, lamentation, and asceticism. There is very little satire in the work.

**Джамиля ДАМИРОВА**

## ИБН АЛЬ-КАТТА И ЕГО АНТОЛОГИЯ «АД-ДУРРА АЛЬ-ХАТИРА»

***Р е з ю м е***

Возникновение исламской религии является важным фактором объединения всех арабских племен вокруг единой религиозной идеологии и формирования их как нации. На Аравийском полуострове создается исламское государство-халифат, основанное на религиозных принципах. Еще одним важным событием стало начало Футухата. В 878 году остров Сицилия был захвачен Аглабидами. Кем были Аглабиды, завоевавшие Сицилию? Их предок был одним из арабских дворян, из Хорасана, который помог Аббасидам в восстании против Омейядов и привел их к власти. Таким образом, арабо-сицилийская литература формировалась на Сицилии в течение примерно 200 лет. Наиболее известным представителем этой литературы является Абуль-Касим Али ибн Джафар ибн аль-Катта. Хотя источники не дают обширных и подробных сведений о сфере деятельности писателя, известно, что он родился в Сицилии, затем переселился в Египет и там же умер. Ряд произведений Ибн аль-Катты упоминается в исторических источниках, наиболее известным из которых является его «Ад-Дурра аль-Хатира фи Шуара аль-Джазира» («Достойная жемчужина о поэтах Острова»). Эта антология включает 20.000 стихотворений 170 поэтов. Однако в имеющемся у нас экземпляре издания отражено не 170, а лишь 106 биографий поэтов. Антология ад-Дурры охватывает все периоды арабской поэзии, зародившейся в Сицилии. Образцы поэзии, отраженные в антологии, разнообразны по жанровому признаку. Наиболее распространенными образцами поэзии являются газели. Затем следуют жанры хамрия, похвала, панегирик, марсия (ода на смерть) и аскетизма. В произведении очень мало образцов сатиры.